Azərbaycan
TEXNİKİ
Universiteti

# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNDƏ TƏHSİLALANLARIN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İMTAHANLARIN TƏŞKİLİ QAYDALARI

**Bakı - 2023**

# Azərbaycan Texniki Universitetində təhsilalanların Qiymətləndirilməsi və İmtahanların təşkili Qaydaları

## 1. Ümumi müddəalar

1.1. “Azərbaycan Texniki Universitetində təhsilalanların Qiymətləndirilməsi və İmtahanların təşkili Qaydaları” sənədi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı təsdiq edilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2017- ci il tarixli 257 nömrəli qərarına əsasən əlavə və düzəlişlər edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində əsas(baza) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili qaydaları” sənədinə əsasən hazırlanmışdır.

1.2. Qaydalar AzTU-da bakalavriat və magistratura səviyyələrində təhsilalanların qiymətləndirilməsi və imtahan sessiyasının təşkili ilə bağlı məsələləri tənzimləyir.

## 2. AzTU-da qiymətləndirilmənin aparılması

2.1. Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistem əsasında həyata keçirilir. Bu sistem tələbələrin fənni mənimsəmə səviyyəsini, yəni əldə etdikləri bilik və bacarıqları qiymətləndirmək üçün tətbiq olunur və daxili normativ sənədlərə əsasən tənzimlənir;

2.2. Elektron Təhsil Sistemində iştirak etməyən tələbələrə həmin saata «q/b», sorğulara cavab verənlərə müvafiq «bal», dərsdə iştirak edən, lakin qiymət almayanlara isə «i/e» yazılır;

2.3. Tədris ili ərzində təhsilalanın bal bölgüsü aşağıdakı kimi aparılır:

| **Tədris növü** | **Bal** |
|---|---|
| Seminar/məşğələ | 30 |
| Davamiyyət | 10 |
| Tələbələrin sərbəst işi | 10 |
| İmtahan | 50 |
| **Cəmi:** | **100** |

*Seminar (məşğələ) balı aralıq və cari qiymətləndirmə ballarının cəmi olaraq 30 bal qeyd edilir.*

2.4. Müvafiq fənn üzrə tədris ili ərzində toplanmış balın yekun miqdarına əsasən təhsilalanın biliyi aşağıdakı kimi qiymətləndirilir:

| Bal ilə qiymətlərndirmə | Qiymətləndirmə kriteriyaları | Kriteriyanın hərfi işarəsi |
|---|---|---|
| 91-100 bal | əla | **A** |
| 81-90 bal | çox yaxşı | **B** |
| 71-80 bal | yaxşı | **C** |
| 61-70 bal | kafi | **D** |
| 51-60 bal | qənaətbəxş | **E** |
| 51 baldan aşağı | qeyri-kafi | **F** |

*Tələbələrin fənlər üzrə qazandıqları qiymətlər tələbələrin imtahan vərəqələrində, qiymət kitabçalarında, diplom əlavələrində və digər müvafiq sənədlərdə həm bal, həm də hərf göstəriciləri ilə qeyd olunur*.

2.5. Cari və aralıq qiymətləndirmənin aparılma qaydası:

- Cari biliyin qiymətləndirməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı əsasında aparılır. Belə ki, cari qiymətləndirmə - fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsi olmaqla, mühazirə və məşğələ (laboratoriya) dərs materiallarının mənimsənilmə səviyyəsini qiymətləndirilir.
- Tədris ili ərzində bir dəfə aralıq qiymətləndirmə təşkil olunur. Aralıq qiymətləndirmə bir qayda olaraq semestrin VIII həftəsində (və ya IX həftəsində) keçirilir və təqdim edilən sualar 7 həftə ərzində keçirilən mövzular üzrə tərtib olunur. Yazılı və ya şifahi formada aparılır. Suallar Elektron Təhsil Sisteminə yerləşdirilir və iki akademik saat ərzində həyata keçirilir. İmtahana əsas məsul şəxs müəllimdir. Aralıq imtahanlar bilet formasında içərisində 3 sual olmaqla hazırlanır, müəllimin və kafedra müdirinin imzası ilə təsdiq olunur.

## 3. Qiymətləndirmə formaları

AzTU-da aralıq qiymətləndirmə yazılı və ya şifahi formada, yekun qiymətləndirmə isə test, yazılı, şifahi, yazılı-elektron formalarda təşkil oluna bilər. İmtahan forması, sual sayı, qiymətləndirmə meyarları və vaxt məhdudiyyəti tələbələrə əvvəlcədən bildirilir.

### 3.1. Test qiymətləndirmə forması

- Hər həftə keçirilən dərslərə aid **test sualı** müəyyən edilir;

- Test suallarının **40%-i asan, 40%-i orta, 20%-i çətin** olmaqla tərtib edilir;
- Suallar Bloom taksonomiyasına uyğun tərtib edilir:
    - **Asan səviyyəli suallar** – yadda saxlama və anlama bacarıqlarını yoxlamalı;
    - **Orta səviyyəli suallar** – tətbiqetmə və təhlil bacarıqlarını əhatə etməli;
    - **Çətin səviyyəli suallar** – qiymətləndirmə və yaradıcı yanaşmanı tələb etməli.

- Yekun imtahan başlayan anda tələbəyə proqram vasitəsi ilə 50 testdən ibarət bilet formalaşdırılaraq təqdim olunur və sualların cavablandırılması üçün 60 dəqiqə vaxt verilir;
- Hər test sualının düzgün cavablandırılması **1 balla qiymətləndiriləcək** (bəzi hallarda qiymətləndirmə meyarları dəyişdirilə bilər).

### 3.2. Yazılı qiymətləndirmə forması

- Hər həftə keçirilən dərslər üzrə suallar müəyyən edilir;
- Sualların **40%-i asan, 40%-i orta, 20%-i çətin** olmaqla tərtib edilir;
- Suallar Bloom taksonomiyasına uyğun tərtib edilir:
    - **Asan səviyyəli suallar** – yadda saxlama və anlama bacarıqlarını yoxlamalı;
    - **Orta səviyyəli suallar** – tətbiqetmə və təhlil bacarıqlarını əhatə etməli;
    - **Çətin səviyyəli suallar** – qiymətləndirmə və yaradıcı yanaşmanı tələb etməli.

- Qiymətləndirmə zamanı proqram vasitəsi ilə biletlərdən ixtiyari 1 bilet təhsilalanın elektron kabinetinə göndərilir. Bir bilet 5 sualdan ibarət olur.
- Qiymətləndirmə 0-10 bal arasında olmaqla fənn müəllimi tərəfindən aparılır.
- Qiymətləndirmə məzmunun düzgünlüyü (50%), analiz və əsaslandırma (30%), dil və yazı qaydalarına uyğunluq (20%) meyarlarına uyğun olaraq aparılır.

### 3.3. Şifahi Qiymətləndirmə Forması

- Fənnin kredit və dərs saatına uyğun olaraq müəllim tərəfindən suallar hazırlanır;
- Suallar Bloom taksonomiyasına uyğun tərtib edilir:
    - **Asan səviyyəli suallar** – yadda saxlama və anlama bacarıqlarını yoxlamalı;

- **Orta səviyyəli suallar** – tətbiqetmə və təhlil bacarıqlarını əhatə etməli;
- **Çətin səviyyəli suallar** – qiymətləndirmə və yaradıcı yanaşmanı tələb etməli.

- Qiymətləndirmə zamanı proqram vasitəsi ilə biletlərdən ixtiyari 1 bilet təhsilalanın elektron kabinetinə göndərilir. Bir bilet 5 sualdan ibarət olur;
- Qiymətləndirmə aşağıdakı meyarlar üzrə aparılır:
  - Cavabın məzmunun doğruluğu və dəqiqliyi – **40%**
  - Məsələyə analitik yanaşma və əsaslandırma – **30%**
  - Fikrin ifadə tərzi, məntiq və nitq qabiliyyəti – **20%**
  - Sualın tam cavablandırılması və əlavə izah – **10%**
- Şifahi qiymətləndirmə zamanı video qeydiyyat aparılır.

### 3.4. Yazılı-elektron qiymətləndirmə forması

- Yazılı-elektron imtahan zamanı təhsilalana 3 nəzəri, 7 praktiki sual olmaqla sistem tərəfindən 10 sual təqdim olunur;
- Təhsilalana sualların cavablandırılması üçün 120 dəqiqə vaxt verilir;
- İmtahan bitdikdən dərhal sonra təhsilalanların elektron cavab vərəqləri müəllimin şəxsi kabinetinə göndərilir;
- Hər bir sual müəllim tərəfindən 1-5 bal aralığında qiymətləndirilir;
- Qiymətləndirmə bitdikdən sonra nəticələr əsasında elektron imtahan vərəqləri formalaşır.

### 3.5. Dil fənlərinin qiymətləndirilməsi

- Dil fənlərinin qiymətləndirilməsi danışıq (speaking), oxuma (reading), yazma (writing), lüğət-qramatika (vocabulary-grammar), dinləmə (listening) bacarıqları üzrə keçirilir.
- Bu zaman danışıq, lüğət-qramatika, yazma, oxuma, lüğət-qramatika, dinləmə hər biri 10 balla qiymətləndirilir;
- Daha geniş qiymətləndirmə (hər bir dil səviyyəsi üzrə qiymətləndirmə və s.) qaydaları kafedra tərəfindən tərtib edilən qaydalarla həyata keçirilir.

### 3.6. Sərbəst iş qiymətləndirmə forması

- Fənin öyrənilməsi nəticəsində əldə olunan bilik və bacarıqlar Sİ-in hazırlanmasında öz əksini tapmalıdır. Sərbəst işlər tələbələrin araşdırma, analiz, yaradıcılıq və praktiki bacarıqlarını inkişaf etdirmək üçün düzgün bir yanaşma təmin edir.
- Tələbəyə fənn üzrə semestr ərzində 1 sərbəst işin (zəruri hallarda sərbəst işlərin sayı artırıla bilər) yerinə yetirilməsi tapşırığı verilir.
- Sərbəst işlərin tapşırıqları müxtəlif formada (yazı işlər, praktiki işlər, təqdimat, tədqiqat, layihə əsaslı işlər və digər) ola bilər.
- Sərbəst işlərin qəbulu fənn üzrə mühazirə dərslərini tədris edən müəllim və yaxud da kafedranın razılığı ilə məşğələ dərslərini tədris edən müəllim tərəfindən auditor saatlardan kənar saatlarda keçirilir.
- Sərbəst işlərin qiymətləndirmə mexanizmləri aşağıdakı kimidir:

**Yazılı sərbəst iş**

| Qiymətləndirmə Meyarı | Maksimum Bal |
|---|---|
| Mövzuya uyğunluq və araşdırma dərinliyi | 3 |
| Analiz və elmi dəqiqlik | 2 |
| Struktur və ardıcıllıq | 2 |
| Akademik yazı üslubu və istinadlar | 2 |
| Vaxtında təqdim olunması | 1 |

**Praktiki sərbəst iş**

| Qiymətləndirmə Meyarı | Maksimum Bal |
|---|---|
| Problemin həlli və texniki yanaşma | 3 |
| Metodologiya və analiz | 2 |
| Tətbiqetmənin dəqiqliyi və effektivliyi | 2 |
| Nəticələrin izahı və təqdimat | 2 |
| Vaxtında təqdim olunması | 1 |

**Təqdimat əsaslı sərbəst iş**

| Qiymətləndirmə Meyarı | Maksimum Bal |
|---|---|
| Məzmunun dolğunluğu | 4 |
| Təqdimat bacarığı | 2 |
| Nitqin aydınlığı | 2 |
| Slaydların dizaynı | 1 |
| Vaxt çərçivəsinə riayət edilməsi | 1 |

**Tədqiqat əsaslı sərbəst iş**

| Qiymətləndirmə Meyarı | Maksimum Bal |
|---|---|
| Mövzunun aktuallığı | 3 |
| Metodologiyanın seçimi | 2 |
| Analiz və nəticələrin izahı | 2 |
| Akademik yazı üslubu | 2 |
| Vaxtında təqdim olunması | 1 |

**Layihə əsaslı sərbəst iş**

| Qiymətləndirmə Meyarı | Maksimum Bal |
|---|---|
| Mövzunun aktuallığı | 4 |
| Layihənin innovativliyi | 3 |
| Məlumatların düzgün təhlili | 2 |
| Vaxtında təqdim olunması | 1 |

### 3.7. Laboratoriya qiymətləndirmə forması

- Laboratoriya qiymətləndirməsinin əsas məqsədi tələbələrin nəzəri bilikləri praktik bacarıqlarla birləşdirmə, analitik düşünmə qabiliyyətini və təcrübə aparmaq vərdişlərini ölçməkdir;

- Bu qiymətləndirmə forması tələbənin laborator mühitdə işləmə bacarığını müəyyənləşdirmək, təcrübə nəticələrinin təhlil və şərh olunması qabiliyyətini ölçmək məqsədi daşıyır;
- Qiymətləndirmə müəllim tərəfindən birbaşa laboratoriya işi zamanı və ya iş sonunda aparılır;
- Tələbə aşağıdakı meyarlara görə qiymətləndirilir:

| Meyarlar | İzahı | Qiymətləndirmə balı |
|---|---|---|
| **Hazırlıq səviyyəsi** | Tələbənin laboratoriya işinə nəzəri hazırlıq və lazımi materialların öyrənilməsi | 2 bal |
| **Təcrübənin yerinə yetirilməsi** | Tələbənin laborator tapşırığını ardıcıl, düzgün və metodiki qaydalara uyğun şəkildə icra edilməsi | 2 bal |
| **Müşahidə və qeydlər** | Təcrübə zamanı aparılan müşahidələrin və nəticələrin dəqiq qeyd edilməsi | 2 bal |
| **Nəticələrin təhlili** | Əldə olunan nəticələrin məntiqi əsaslarla təhlili və şərh olunması | 2 bal |
| **İş zamanı davranış və fəallıq** | Tələbənin dərs müddətində aktiv iştirakı, məsuliyyətli yanaşması və əməkdaşlığa açıq olması | 2 bal |
| **Cəmi** | | 10 bal |

### 3.8. Case Study (Praktiki Məsələ) Qiymətləndirmə Forması

- Case study (praktiki məsələ) qiymətləndirmə forması tələbələrin nəzəri biliklərini praktiki situasiyalara tətbiq etmə bacarığını yoxlamaq üçün istifadə olunur;
- Bu qiymətləndirmə forması tələbələrin analitik düşüncə, problem həll etmə və qərarvermə bacarıqlarını inkişaf etdirmək və ölçmək məqsədi daşıyır;
- Hazırlanan case study-lər müvafiq fənnin tədris olunan mövzuları və öyrənmə nəticələri ilə uzlaşmalı, real və praktik vəziyyətləri əks etdirməlidir;
- Tələbənin cavabları aşağıdakı meyarlara görə qiymətləndirilir:

- Problemin dərk olunması və izahı;
- Analitik təhlil və məntiqi əsaslandırma;
- Həll yollarının uyğunluğu və tətbiq oluna bilməsi;
- Məlumatın aydın və ardıcıl şəkildə təqdimatı.

## 4. İmtahan sessiyasının təşkili və idarə olunması

- Azərbaycan Texniki Universitetində imtahan sessiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq sərəncam və təlimatlarına uyğun olaraq tənzimlənir;
- Bu Qaydalar AzTU-da bakalavriat və magistratura səviyyələrində keçirilən sessiya imtahanları ilə bağlı məsələləri tənzimləyir.

### 4.1. İmtahan qaydaları

- İmtahan sessiyasının keçirilmə müddəti 5 həftədir;
- Bakalavr səviyyəsində əyani təhsilalma formasında sessiya imtahanları şifahi, yazılı, yazılı-elektron, humanitar fənn bloklarına daxil olan fənlər üzrə (XDİAK-istisna olmaqla) test, qiyabi təhsilalma formasının tələbələri üçün bütün imtahanlar test üsulu ilə keçirilir. Yüksək Təhsil İnstitutunda (bundan sonra YTİ) magistratura səviyyəsində sessiya imtahanları şifahi (yazılı) üsulla keçirilir (rekrotluğun razılığı ilə imtahan forması sonuncu tədris həftəsindən gec olmayaraq əsaslandırılmış rəsmi müraciət əsasında dəyişdirilə bilər).
- XDİAK 1,2,3,4 fənlərinin sessiya imtahanları üçün xüsusi qayda tətbiq olunur:
  - Tədris azərbaycan və rus dilində olan qruplar üzrə:
    - əyani təhsil alan imtahan danışıq (speaking), oxuma (reading), yazma (writing), lüğət-qramatika (vocabulary-grammar) bacarıqları üzrə keçirilir. Bu zaman danışıq, lüğət-qramatika yazma hər biri 10 bal, oxuma isə 20 balla qiymətləndirilir;
  - Tədris alman və ingilis dilində olan qruplar üzrə:
    - İmtahan danışıq (speaking), oxuma (reading), yazma (writing), dinləmə (listening), lüğət-qramatika (vocabulary-grammar) bacarıqları üzrə keçirilir. Bu zaman hər bir

ünsür 10 balla qiymətləndirilir;

- Qiyabi təhsil üzrə XDİAK 1,2,3,4 fənləri üzrə imtahanlar test üsülü ilə təşkil olunur;

- Hər bir fənnin sillabusunda onun qiymətləndirmə forması qeyd olunur və təhsilalanlar ilk dərs günü müəllimlər tərəfindən bu barədə məlumatlandırılır;
- Tələbə fənn üzrə dərslərin 25%-dən çoxunda iştirak etmədiyi halda imtahana buraxılmır və dərsləri növbəti dəfə davamiyyət sayından asılı olaraq payız, yaz və ya yay semestrlərində dinləməklə imtahan vermək hüququ əldə edir;
- Təhsilalanlar akademik borcu yaranmış fənni alt qrupda dinlədiyi zaman davamiyyət limitini aşdığı və bu səbəbdən imtahana buraxılmadığı halda, onların davamiyyətsizliyi 50 faizdən yuxarı olduqda, həmin fənni (fənləri) yenidən alt qrupda dinləyir. Davamiyyət limiti 50 faizədək aşıldığı halda isə təhsilalanların istəyi əsasında onların yay semestrində iştirakına icazə verilir;
- Təhsil haqqını müəyyən edilmiş müddətdə ödəmədiyi halda təhsilalanların sessiya imtahanlarında iştirakına icazə verilmir. Bu imtahanlar təhsil haqqı borcu ödənildikdən (yaxud möhlət verildikdən) sonra müvafiq qaydada rektorla razılaşdırılmaqla keçirilir;
- İmtahan cədvəlləri fakültə, məktəb və mərkəzlərlə razılaşdırılmaqla tərtib olunur və tədris işləri üzrə prorektor tərəfindən təsdiq edilir;
- Sessiya imtahanları akademik təqvimdə nəzərdə tutulmuş dövrdə arasında azı 2 gün fasilə verilməklə keçirilir;
- Müxtəlif səbəblərdən cədvəldən fərqli tarixdə imtahanın keçirilməsi ilə bağlı təhsilalanların müraciətləri müvafiq fakültə dekanı, mərkəz və YTİ direktoruna ünvanlanır;
- Təhsilalanların alt qrupa (müstəqil qruplara) yazıldıqları fənlərin imtahanı ilə sessiya imtahanları eyni tarixə təsadüf etdiyi halda, imtahanlardan birinin (biri test, digəri şifahi (yazılı) olduqda, test imtahanının, hər ikisi test və ya şifahi (yazılı) olduqda, altqrup (müstəqil) imtahanın) tarixininə dəyişdirilir;
- İmtahanlar həm əyani, həm də qiyabi təhsilalma forması üzrə ənənəvi formada keçirilir. Zərurət yarandığı halda imtahanlar distant formada keçirilə bilər;
- Sessiyanın ilk günlərində adətən əvvəlki semestrlərdən olan təkrar imtahanlar təşkil olunur, daha sonra sessiya imtahanları başlayır. Alt qruplara qeydiyyatdan keçən, əvvəlki semestrlərdən olan təkrar, yaxud üzrlü imtahan verən təhsilalanlar üçün imtahanlar ardıcıl günlərdə təşkil olunur;

- İmtahanlar keçirilmə formasından asılı olaraq imtahan zallarında və bu məqsədlə müəyyən edilən auditoriyalarda keçirilir;
- İmtahanlar birmənalı olaraq fənni tədris edən müəllim tərəfindən qəbul edilir. Bu və ya digər səbəbdən müəllimin imtahanda iştirak etməsi mümkün olmazsa, rəhbərlik tərəfindən yeni müəllim təyin və əvəz edə bilər;
- Sessiya imtahanları fakültə, mərkəz və institut rəhbərləri tərəfindən hər bir imtahan zalına təyin olunan nəzarətçilər, auditoriyalara təyin olunan assistentlərin iştirakı ilə keçirilir;
- Test üsulu ilə keçirilən imtahanların təşkili üçün test imtahanları nəzərdə tutulan günlər üzrə hər fakültə tərəfindən 2 nəzarətçi (hər növbədə 1 nəzarətçi olmaqla) müəyyən edilir və imtahan qrafiki məlum olduqdan sonra nəzarətçilərin ad və soyadları, həmçinin iş növbələri İnformasiya Tədris Mərkəzi (bundan sonra İTM) ilə razılaşdırılaraq qrafik tərtib edilir. Nəzarətçilərin qrafik üzrə test imtahanlarında iştirak etmələrinə fakültə dekanlıqları və kafedralar məsuliyyət daşıyırlar;
- İmtahan prosesinin kameralar vasitəsilə müşahidəsi aparılır. Nəzarətçilərlə yanaşı, kameralar vasitəsilə imtahan zamanı, habelə imtahan bitdikdən sonra aşkar edilən intizam pozuntusu halları onun baş verdiyi imtahanın nəticəsinin ləğvində və müvafiq tədbirin görülməsində əsas kimi qəbul edilir.

### 4.2. İmtahan suallarının hazırlanması və təsdiqi

- Əyani təhsilalma formasında cari semestrdə tədris olunan Ümumi fənlər (Xarici dildə işgüzar və akademik kommunikasiya 1,2,3,4 istisna olmaqla) bölməsindən hər bir fənn üzrə 300 testdən çox olmamaqla suallar, ixtisasın (proqramın) peşə hazırlığı fənləri bölməsindən olan fənlər üzrə 50-60 sual, XDİAK 1,2,3,4 fənləri üzrə 25 sual müəllim tətəfindən hazırlanır və kafedra müdiri təsdiqlədikdən sonra Elektron imtahan sisteminə kafedranın əməkdaşı tərəfindən daxil edilir;
- YTİ-də yazılı şəkildə keçiriləcək aralıq qiymətləndirmə (kollokvium) və semestr imtahanı materialları, fənnin xarakterindən (mühəndis, riyazi hesablamalı, məntiqi mühakiməyə əsaslanan, yaxud ümumi səpgili) asılı olaraq aşağıdakı formalarda keçirilə bilər və onun forması fənni tədris edən müəllim tərəfindən müəyyən edilir. Göstərilən formalar üzrə suallar tərtib edildikdən Elektron Təhsil Sisteminə sisteminінə **cavabsız** yerləşdirilməli və

tələbələr bu haqda məlumatlandırılmalıdır:

- yalnız test olduqda – tədris olunan fənnin saatı 30 olarsa 50 sual, 30-dan çox olarsa 60 test sualı;
- yalnız açıq sual;
- test və açıq sual (qarışıq);
- test və case study (praktiki məsələ);
- yalnız case study.

- YTİ-də şifahi keçiriləcək imtahanın sualları tədris olunan fənnin auditoriya saatından asılı olmayaraq 50 sualdan ibarət tərtib edilməlidir. Tərtib edilmiş aralıq qiymətləndirmə (kollokvium) və semestr imtahanlarının sualları Elektron Təhsil Sisteminə yerləşdirilməli və tələbələr bu haqda məlumatlandırılmalıdır. Hər bilet 5 sualdan ibarət olmaqla fənni tədris edən müəllim tərəfindən 30 bilet hazırlanır. İmtahan sualları fənn müəllimi və kafedra müdiri tərəfindən imzalanır.
- Qiyabi təhsilalma formasında isə I, II ,III, IV, V tədris illərində hər bir fənn üzrə test sayı 250- dən çox olmamaqla müəyyənləşdirilir;
- İmtahan sualları nəzəri, praktiki tapşırıq, məsələ həlli tiplərində tərtib olunur;
- İmtahan sessiyasının başlanmasına ən azı 20 gün qalmış kafedra müdirləri tərəfindən təsdiq edilmiş imtahan sualları universitetin Elektron Təhsil Sisteminə yerləşdirilir. İmtahan sualları (və ya testlər) onların keyfiyyətinin yüksəldilməsi məqsədilə hər semestr yenidən aidiyyəti kafedralar tərəfindən nəzərdən keçirilir, yenilənir və təkmilləşdirilir;
- YTİ-də imtahanlarının siyahısı kafedralar tərəfindən ümumiləşdirilərək sessiyanın başlamasına ən geci 5 iş günü qalmış Magistratura şöbəsi və MBA Proqramına təqdim edilir;
- Test üsulunda sessiya imtahanlarının keçirilməsi üçün qapalı tipli testlərdən istifadə olunur. Testlər sual və 5 cavab variantından ibarət olmaqla xüsusi şablonda tərtib edilir. Cavab variantlarından 1-i doğru, qalanları isə yanlış olur;
- Şifahi (yazılı) imtahanlar üçün əyani təhsilalma forması üzrə 60, qiyabi təhsilalma forması üzrə 40 sual tərtib olunur;
- Yazılı-elektron imtahanlar üçün hər fənn üzrə 50 imtahan sualı müəyyənləşdirilir. Fənn üzrə 30 praktik, 20-si isə müvafiq fənnin nəzəri hissəsini əhatə edən suallar hazırlanır;

- Testlər fənnin tədris proqramında olan mövzular üzrə hazırlanır. Fənnin sillabusunda olmayan mövzu üzrə test tərtib edilməsinə yol verilmir;
- Mürəkkəblik dərəcəsinə görə testlər asan, orta və çətin testlər kimi fərqləndirilir. Bir mövzu üzrə hər üç çətinlik səviyyəsi üzrə test tərtib olunmaya bilər. Bununla belə fənlər üzrə test sual bankındakı testlərin ümumi sayının 40 faizi asan, 40 faizi orta, 20 faizi isə çətin testlərdən ibarət olur. Bu nisbətin qorunmasını fənn üzrə test sual bankını formalaşdıran müəllim(lər) tərəfindən təmin edilir;
- Asan səviyyəli testlər mövzu üzrə kateqoriya, anlayış, tərif, prinsip, metod və s. bu kimi nəzəri biliklərin müəyyən edilməsi məqsədilə tərtib edilir. Orta səviyyəli testlər nəzəri biliklə yanaşı cavablandırılması hesablama, həll etmə və s. bu kimi bacarıq tələb edən testlərdir. Çətin səviyyəli testlər isə cavablandırılması hesablama, həll etmə və s. bacarıqlar tələb etməklə yanaşı təhlil və sintez etmək, məntiqi əlaqə qurmaq və nəticə çıxarmaq və s. kompetensiyalar (səriştələr) tələb edən testlərdir.

### 4.3. İmtahan prosesi

- Təhsilalanlar imtahan zalına yalnız tələbə bileti ilə (olmadıqda şəxsiyyəti təsdiq edən sənədlə) daxil olur. Sənədi təqdim etməyən təhsilalanlar imtahandan kənarlaşdırılır. Fakültə, mərkəz və ya institut rəhbərinin müraciəti əsasında həmin təhsilalanalar yenidən imtahan zalına buraxıla bilərlər. Bu halda onların itirdiyi vaxta görə əlavə imtahan vaxtı verilmir;
- İmtahanda qazanılan balların maksimum miqdarı 50 bal təşkil edir. Təhsilalanın imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə təhsilalanın akademik borcu yaranmış olur;
- Şifahi imtahan zamanı tələbənin masasının üzərində yalnız qələm, imtahan bileti, imtahan vərəqi və su ola bilər;
- Şifahi (yazılı) imtahan zamanı proqram vasitəsi ilə seçilmiş 30 biletdən ixtiyari 1 bilet təhsilalanların elektron kabinetinə göndərilir. Bir bilet 5 sualdan ibarət olur. Şifahi (yazılı) formada təhsilalana 10 dəqiqəyədək (magistrantlara 20 dəqiqəyədək) vaxt ayrılır. Təhsilalan cavablandırmaya ilkin olaraq hansı sualdan başlamasına özü qərar verir. İmtahan biletində qeyd olunan hər bir sualın cavabı imtahanın qiymət meyarları əsasında

assistentin iştirakı ilə müəllim tərəfindən əyani və qiyabi təhsilalma formaları üzrə "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"də müəyyən edilən meyarlara əsasən 10 ballıq şkala üzrə qiymətləndirilir və nəticə imtahan prosesi zamanı "Elektron Təhsil Sistemi"nə daxil edilir. Cavablandırılmayan sual üzrə nəticə "0" bal kimi hesaba alınır. Əgər müəllim imtahanın sonunda yekun nəticəni təsdiqləməzsə, imtahan keçirilməmiş sayılır və məsuliyyəti imtahanı qəbul edən müəllim daşıyır;

- Yazılı-elektron imtahan zamanı hər bir təhsilalana 3 nəzəri, 7 praktiki sual olmaqla sistem tərəfindən qeyri-ixtiyari 10 sual təqdim olunur. Hər bir sual 1-5 aralığında balla müəllim tərəfindən qiymətləndirilir. Təhsilalana sualların cavablandırılması üçün 120 dəqiqə vaxt verilir. İmtahan bitdikdən dərhal sonra təhsilalanların elektron cavab vərəqləri müəllimin şəxsi kabinetinə göndərilir. Müəllim elə həmin gün nəticələri yoxlamalı və qiymətləndirmə aparmalıdır. Qiymətləndirmə bitən kimi, nəticələr əsasında elektron imtahan vərəqləri formalaşır;
- Test üsulu ilə imtahanlar elektron formada keçirilərək imtahan başlayan anda təhsilalana proqram vasitəsilə 50 testdən ibarət bilet formalaşdırılaraq təqdim olunur. Təhsilalana sualların cavablandırılması üçün 60 dəqiqə vaxt verilir. Testlərin ümumi sayının 40 faizi asan, 40 faizi orta, 20 faizi isə çətin testlərdən ibarət olur. Test üsulu ilə imtahanda hər bir test sualının cavabı həm əyani, həm də qiyabi təhsilalma forması üzrə 1 ballıq şkala üzrə qiymətləndirilir. Səhv cavabların sayı yekun bala təsir göstərmir. Test imtahanının nəticəsi haqqında məlumat təhsilalan tərəfindən imtahan bitirildiyi zaman ekranda görünür və onların şəxsi kabinetində yerləşdirilir. Elektron imtahan vərəqləri sistem tərəfindən növbəti gün formalaşdırılır;
- İstənilən üsulda keçirilən imtahana maksimum 10 dəqiqə gecikməyə icazə verilir. Bu halda təhsilalanın ümumi imtahan vaxtı onun gecikdiyi müddət qədər azalır və imtahanlar hər kəs üçün eyni vaxtda bitir;
- İmtahanda aşkar olunan hər hansı anlaşılmazlıq və ya texniki problem olduğu halda təhsilalanlar nəzarətçilərə bu barədə bildirir. Nəzarətçilər yaranmış problem haqqında protokol tərtib edərək, qərar verilməsi üçün rəhbərliyə təqdim edir. İmtahan bitdikdən sonra təhsilalanların qeyd olunan məsələlərlə bağlı müraciətlərinə baxılmır;
- Səhhətində yaranan narahatlıq halı istisna olmaqla imtahan zalını (otağını) icazəsiz tərk edən təhsilalan həmin imtahana yenidən buraxılmır;

- Bilavasitə müraciət etdiyi halda imtahan nəticəsinin ləğvinə əsas yaradan kamera görüntüsü təhsilalana İnformasiya Tədris Mərkəzi əməkdaşları tərəfindən izlədilir;
- Təhsilalan imtahan nəticəsindən narazı qaldığı halda Apellyasiya komissiyasına müraciət edir.

### 4.4. Üzrlü və fənni dinləmədən təkrar imtahanlar

- Üzrlü səbəbdən imtahanlarda iştirak edə bilməyən təhsilalanlar üçün akademik təqvimlə müəyyən edilmiş dövrlərdə dekanlar, İTM və YTİ-nin direktoru tərəfindən müvafiq qaydada rektorla razılaşdırılmaqla imtahanlar keçirilir;
- Təhsilalanlar üçün bir semestrdə cari və əvvəlki semestrlərdən yaranmış akademik borcların ləğvi məqsədilə maksimum 2 fəndən təkrar imtahan keçirilir. Bu məhdudiyyətin gözlənilməsinə fakültə dekanları, İTM və YTİ-nin direktoru məsul hesab edilir;
- Alt qrupda dinlədiyi fəndən nəticəsi "Qeyri-müvəffəq" və ya "Gəlmədi" olan təhsilalanlara həmin fənn (fənlər) üzrə də təkrar imtahan keçirilir;
- Əvvəlki semestrlərdən yaranan akademik borc üzrə təkrar imtahan təhsilalanın həmin fənni (fənləri) son dəfə dinlədiyi semestr ərzində topladığı imtahana qədər bal əsasında təyin olunur. Bir qayda olaraq təkrar imtahan təyin edilən zaman yay semestri nəticələrinə istinad olunmur;
- Təhsilalan son dəfə fənni (fənləri) dinlədiyi zaman davamiyyət limitini keçdiyi halda, onun həmin fənn üzrə əvvəlki istənilən imtahanaqədər topladığı bal əsasında təkrar imtahan təyin olunmur. Bu halda təhsilalan həmin fənn (fənlər) üzrə krediti alt qrupda, yaxud davamiyyətliliyi 50 faiz və daha artıq olduğu halda yay semestrində dinləməklə qazana bilir;
- Əvvəlki semestrlərdə yaranmış akademik borclar üzrə təkrar imtahanlar sessiya müddətində, cari semestrdən yaranmış akademik borclar üzrə isə sessiya bitdikdən sonra növbəti semestr başlayana qədər keçirilir;
- Cari və əvvəlki semestrlərdən yaranmış akademik borcun ləğvi üçün fənni yenidən dinləmədən təkrar imtahan keçirilir. Bu zaman təkrar imtahanda iştirak etmək istəyən təhsilalanla müqavilə bağlanır, fənnin kreditinə müvafiq hesablanan məbləğin 25%-i məbləğində ödəniş edilir və həmin müqavilə tədris üzrə prorektor tərəfindən

imzalandıqdan sonra möhürlənir;

- Sessiya imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən təhsilalanlar imtahan sessiyasının sonuncu gününədək müvafiq təsdiqedici sənədi fakültə (İTM, YTİ direktoruna) dekanlığına təqdim edir;
- Təkrar imtahanlar müqavilə qoşma edilməklə fakültə, İTM, YTİ rəhbəri tərəfindən rektora ünvanlanan xidməti məruzə əsasında əmrləşdirilməklə təşkil olunur;
- Təkrar və üzrlü imtahanlarda iştirak etməyən təhsilalanlar üçün həmin fənlər üzrə yenidən imtahan təşkil olunmur. Onlar növbəti semestrlərdə həmin fənn üzrə akademik borcunu fənni (fənləri) alt qruplarda, habelə yay semestrində yenidən dinləmək və müvəffəq qiymət almaqla aradan qaldıra bilərlər;
- Üzrlü imtahanlarında iştirak edən təhsilalan həmin semestr nəticəsinə görə təqaüd müsabiqəsində iştirak edir. Fənni yenidən dinləmədən təkrar imtahan verən təhsilalanlar isə həmin semestr nəticəsinə görə təqaüd müsabiqəsində iştirak etmir.

### 4.5. İmtahanda qayda pozuntusu və imtahan nəticəsinin ləğvi

- İmtahanların keçirilməsi zamanı təhsilalanların nizam-intizamı "Azərbaycan Texniki Universitetində təhsilalanların universitetdaxili intizam qaydaları" əsasında tənzimlənir;
- İmtahan zamanı aşağıdakı halların aşkarlanması həmin nəticələrin ləğvinə və təhsilalanlar barəsində müvafiq intizam tədbirlərinin görülməsinə əsas yaradır:
- İmtahan başlayandan sonra təhsilalandan konspekt, mobil telefon, "ağıllı" saat, mikroqulaqcıq, məsafədən ötürmə cihazı və s. digər yardımçı vasitənin aşkar edilməsi;
- İmtahanı keçirilən fənnə aid qeydlər olan kağızın, mobil telefonun bir təhsilalanın digərinə verməsi və ya digərindən alması;
- İmtahanda digər təhsilalanın yazısından köçürməyə cəhd etməsi və ya köçürməsi;
- İmtahanda nəzarətçinin və ya imtahana məsul şəxsin əsaslı xəbərdarlığına qarşı etiraz və ya kobud rəftar edilməsi, habelə zalda səs-küy yaradılması;
- Başqa bir təhsilalanın əvəzinə imtahan verməyə cəhd edilməsi və ya imtahan verməsinin aşkar olunması;
- İmtahan bitdikdən cavab vərəqini nəzarətçiyə təhvil vermədən təhsilalanın imtahan zalını tərk etməsi;
- Təhsilalanın hər hansı bir üzrlü səbəb olmadan nəzarətçilərdən icazəsiz zalı (auditoriyanı)

tərk etməsi;

- Təhsilalanların intizam pozuntusu halına yol verməsi faktı aşkar olunduqda, ilk dəfə tələbəyə xəbərdarlıq edilir, imtahanı davam etməsinə icazə verilir. İkinci dəfə qayda pozularsa, tələbə imtahandan çıxarılır, dərhal protokol tərtib olunur və imtahan nəticəsi ləğv edilir. Protokol imtahan nəzarətçiləri, fakültə, İTM və YTİ-nin, habelə İnformasiya Tədris Mərkəzinin əməkdaşı və təhsilalan tərəfindən imzalanır;
- Barəsində protokol tərtib edilən təhsilalan protokolu imzalamaqla imtahan zalını və ya bu məqsədlə təyin olunmuş auditoriyanı tərk edir. Təhsilalan protokolu imzalamaqdan imtina etdiyi halda bu barədə protokolda nəzarətçilər tərəfindən müvafiq qeydiyyat aparılır;
- Protokolun əsli aidiyyəti üzrə fakültə (YTİ) dekanlığına, surəti İTM-ə təqdim edilir;
- Protokol tərtib olunan təhsilalanların imtahan nəticələri İTM-in xidməti məruzəsi və AzTU rektorunun müvafiq əmrinə əsasən ləğv edilir;
- Struktur bölmə üzrə intizam komissiyası tərəfindən aparılan araşdırma zamanı təhsilalan barəsində tərtib edilmiş protokolun əsassız olması halı aşkar edildiyi halda, təhsilalan tərəfindən imtahan nəticəsinin bərpa olunması, imtahanın yenidən təşkil edilməsi və protokolun ləğv edilməsi ilə bağlı rektora müvafiq qaydada müraciət edilir.

### 4.6. İmtahan qəbul edənin (müəllimin) hüquq və vəzifələri

- **İmtahan qəbul edənin hüquqları:**
  - Təhsilalanlardan imtahan zamanı səssiz olmağı və sakitliyə riayət etməyi tələb etmək;
  - İmtahana gecikən tələbədən imtahanı qəbul etməmək;
  - İmtahan zamanı kitablardan, mühazirə konspektlərindən və digər icazə verilməyən materiallardan istifadə etməməyi tələb etmək.
- **İmtahan qəbul edənin vəzifələri:**
  - İmtahanı qəbul edən müəllim imtahanın başlamasına 15 dəqiqə qalmış ona təyin olunmuş auditoriyada olmalıdır;
  - Hər hansı bir səbəbdən imtahanı qəbul edə bilməyən müəllim əvəzlənməsi barədə kafedra müdirinə iki gün əvvəldən məlumatı təqdim etməlidir;
  - İmtahanlar videogörüntü əsasında aparılmalıdır;

- İmtahanın nəticələrini müəllim assistentin iştirakı ilə imtahan prosesi zamanı "Elektron Təhsil Sistemi"nə daxil etməlidir və imtahanın sonunda yekun nəticəni təsdiqləməlidir (əks halda imtahan keçirilməmiş sayılır və məsuliyyəti imtahanı götürən müəllim daşıyır);
- Yalnız adı və imtahan bileti Elektron İmtahan Sistemində qeyd olunmuş təhsilalanlardan imtahanı qəbul etməlidir;
- İmtahanın keçirilməsi zaman obyektiv və qərəzsiz olmalıdır;
- Elektron İmtahan Sistemində qiymətləndirməni aparan (yazılı formada imtahan verən təhsilalanların nəticələrini yoxlayan) müəllimlər universitet rəhbərinin müvafiq göstərişi ilə kafedra müdiri tərəfindən müəyyən edilməlidir;
- Elektron imtahan sistemində qiymətləndirməni aparan (yazılı formada imtahan verən təhsilalanların nəticələrini yoxlayan) müəllimlər imtahana ayrılmış saat bitdikdən sonra şəxsi kabinetə daxil olmalı və imtahana ayrılmış vaxt ərzində nəticələri yoxlamalıdır.

**4.7. Təhsilalanların hüquq və vəzifələri**

- **Təhsilalanın hüquqları:**
  - Elektron imtahan sistemində yazılı formada verilmiş imtahanın nəticəsi barədə məlumatı imtahan prosesi bitəndən 2 gün sonra əldə etmək;
  - Şifahi (yazılı) formada imtahana cavab verdikdən sonra yekun balı barədə məlumatı imtahan götürən müəllimdən tələb etmək;
  - İmtahan prosesində meydana çıxan hər hansı problemlə əlaqədar nəzarətçiyə müraciət etmək və problemin aradan qaldırılmasını tələb etmək;
  - İmtahanın obyektiv və qərəzsiz şəkildə aparılmasını imtahan götürən müəllimdən tələb etmək;
  - İmtahan nəticələrinin qiymətləndirilməsindən və ya sualların (testlərin) tərtibatından narazılığı olduğu halda, 3 iş günü ərzində Apellyasiya komissiyasına müraciət etmək.
- **Təhsilalanların vəzifələri:**
  - İmtahan başlamazdan əvvəl şəxsi kabinetə daxil olaraq imtahan şifrəsini əldə etmək;
  - Yeni sistemlə və şifahi (yazılı) imtahan başlamazdan 10 dəqiqə əvvəl imtahan zalına gəlmək;
  - Tələbə biletini (tələbə bileti olmazsa, şəxsiyyəti təsdiq edən sənədi) imtahana gətirmək və imtahan prosesinin sonunadək masanın üzərində saxlamaq;

- İmtahan zalına daxil olan tələbənin nəzarətçinin göstərişi ilə ona təyin olunan kompüterin arxasında əyləşmək;
- İmtahan prosesində sakitliyə riayət etmək;
- İmtahan bitdikdə, imtahan zalını tərk etmək.

- **Tələbəyə imtahanda nə qadağandır?**
  - Digər tələbələrlə danışmaq, onlara mane olmaq, imtahanda səs salmaq;
  - Kitabdan, mühazirə konspektlərindən və digər icazə verilməyən materiallardan istifadə etmək və köçürmək;
  - İmtahan zalına cib telefonu, kalkulyator, konspekt, qeydiyyat kitabçası, çanta və s. texniki vasitələri gətirmək;
  - Hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
  - Başqa tələbənin şifrəsi ilə imtahan verməyə cəhd etmək;
  - Başqa tələbənin əvəzinə imtahan vermək;
  - İmtahan prosesində digər tələbələrlə məsləhətləşmək, onların monitorlarına baxmaq;
  - Tələbənin kompüterin proqram təminatını korlaması və texniki vəziyyətinə zərər yetirməsi;
  - İntizamsızlıq göstərmək:
  - Zalda gəzişmək, yerini dəyişmək, kiminsə köməyindən istifadə etmək, kiməsə kömək etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq.

***Qeyd:***

*1.Göstərilən qaydalara əməl etməyən tələbə imtahandan xaric edilir və imtahanın nəticəsinə görə ona "0" (sıfır) bal müəyyənləşdirilir.*

*2. Yalnız zəruri hallarda tələbə yerini səlahiyyətli şəxslərin icazəsi ilə dəyişə bilər.*

*3. Tələbə qoyulan qaydaların tələblərinə əməl etmədikdə ilkin xəbərdarlıq edilir, bu hal təkrarlandıqda aidiyyəti fakültə rəhbərliyinə məlumat verilir və barəsində müvafiq akt tərtib edilməklə həmin tələbə imtahandan çıxarılır.*

### 4.8. İmtahan nəzarətçilərinin vəzifə təlimati

- İmtahan başlamazdan 20 dəqiqə əvvəl imtahan zalına gəlmək və cədvəl üzrə imtahan saatında təhsilalanların zala daxil olmasını təmin etmək üçün hazırlıq işlərini (otağın

işıqlandırılması, havalandırılması, kompüterlərin işlək vəziyyətə gətirilməsi və s.) yekunlaşdırmaq;

- İmtahan zalına daxil olan təhsilalanlar ön sıralardan başlayaraq ardıcıl oturmalarını təmin etmək;
- Zalda imtahan verən təhsilalanların tələbə biletləri ilə imtahan sistemində təhsilalana aid olan məlumatların (təhsilalanın şəklinə xüsusi diqqət etməklə) uyğunluğunu yoxlamaq. Əgər uyğunsuzluq aşkar olunarsa, dərhal bu barədə fakültə imtahan komissiyası üzvünə məlumat vermək;
- İmtahanı bitirən təhsilalanlar imtahan zalını tərk etdikdən sonra, zalın qarşısında sonrakı növbələrdə sıxlığın yaranmaması məqsədilə dəhlizdə gözləyənlərin zala daxil olması üçün müraciət etmək;
- İmtahan zamanı təhsilalanların bir-birinə hesablayıcı, pərgar, xətkeş və s. ötürmələrinin qarşısını almaq;
- İmtahan zamanı başqasının əvəzinə imtahana daxil olan, köçürən, köçürməyə cəhd göstərən, bir-biri ilə danışan və digər intizam pozuntusuna yol verən təhsilalanlar,eləcə də imtahan prosesində yaranmış texniki problemlər haqqında fakültə imtahan komissiyasının üzvünün iştirakı ilə bütün zəruri məlumatlar qeyd olunan protokol tərtib etmək;
- Tərtib edilmiş intizam pozuntusuna dair protokolun əslini fakültə imtahan komissiyasına, surətini İnformasiya Tədris Mərkəzinin nümayəndəsinə təqdim etmək;
- Digər növbə nəzarətçisi zala daxil olmadan imtahan zalını tərk etməmək;
- İmtahanın başlanma vaxtından etibarən 15 dəqiqə ərzində heç bir təhsilalanın zalı tərk etməsinə imkan verməmək və imtahan başladıqdan 15 dəqiqə sonra imtahana gələn təhsilalanların imtahan zalına daxil olmasına icazə verməmək;

**4.9. İmtahan nəzarətçilərinə qadağandır:**

- İmtahan zamanı söhbət etmək;
- İstənilən məsələ ilə əlaqədar yüksək səslə müraciət etmək;
- Təhsilalanlara irad bildirən zaman etik qaydalara riayət etmək, səs tonunu yüksəltmək və zalda səs-küy yaratmaq;
- Ciddi şübhə olmadıqda təhsilalanı ayağa qaldırmaq və onun vaxtını almaq;

- Təhsilalanlara qarşı şəxsi qərəz nümayiş etdirmək (daima yanında dayanmaq, onun diqqətini imtahandan yayındırmaq və s.);
- Təhsilalanların şəxsiyyəti, onun xarici görünüşü ilə əlaqəli istənilən təhqiredici ifadələrdən istifadə etmək;
- İmtahan gedişinə maneə yaradan və mövcud qaydalardan kənar istənilən davranışa yol vermək.

### 5. Apellyasiya Qaydaları

- Nəticədən narazı olan tələbə, nəticələrin elan edildiyi gündən 24 saat ərzində Apellyasiya Komissiyasina ərizəsi ilə müraciət etməlidir.
- Müraciət qəbul edildikdən sonra gün təyin edilir və Komissiya üzvləri tələbənin müraciətinə baxılır;
- Nəticəyə uyğun olaraq qərar qəbul edilir. Qərarda tələbənin topladığı qiymət olduğu kimi saxlanılır, yaxud dəyişiklik öz əksini tapır;
- Apellyasiya müraciət etməyən tələbənin imtahan işinə baxılmağa icazə verilmir.

### 6. Yekun müddəa

- Qaydaya əlavə və dəyişikliklər Azərbaycan Texniki Universitetinin rektoru tərəfindən təsdiq olunur;
- Hər semestrin sonunda bu Qaydaya uyğun olaraq imtahanın təşkiliylə bağlı əmr hazırlanır.